


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 53 (24.190)

*28 mart 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Bakı Olimpiya Stadionunda "Qarabağ" və "Qalatasaray" komandaları arasında xeyriyyə oyunu keçirilib

### *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva stadionda oyuna baxıblar*

Martın 26-da Bakı Olimpiya Stadionunda Ağdamın "Qarabağ" və İstanbulun "Qalatasaray" komandaları arasında xeyriyyə oyunu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva stadionda oyuna baxıblar.

FIFA referisi Əliyar Ağayevin idarə etdiyi oyunda "Qalatasaray" komandası erkən qolla hesabı açıb. Matçın 4-cü dəqiqəsində İstanbul təmsilçisinin heyətində Bafetimbi Qomis fərqlənib. Görüşün 19-cu dəqiqəsində "Qarabağ"ın oyunçusu Redon Cica hesabı bərabərləşdirib. "Qalatasaray" matçın 87-ci dəqiqəsində Mauro İkardinin 11 metrlik cərimə zərbəsindən vurduğu qol sayəsində yenidən hesabda irəli çıxıb. Bu, oyunda sonuncu qol olub. Beləliklə, "Qarabağ" – "Qalatasaray" xeyriyyə matçı İstanbul təmsilçisinin qələbəsi ilə başa çatıb – 1:2.



"Qalatasaray" futbol klubunun prezidenti Dursun Özbək Prezident İlham Əliyevə komandanın oyunçularının imzası olan formanı və digər xatirə hədiyyələrini təqdim etdi.

Bu oyun qardaş Türkiyədə baş vermiş "Əsrin fəlakəti"nin – güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına yardım məqsədilə təşkil olunub. Görüşdən əldə olunacaq bütün gəlirlər zəlzələdən əziyyət çəkənlərə yardım üçün Türkiyəyə göndəriləcək. Oyunun satışa çıxarılmış 62 mindən çox biletin hamısının qısa müddətdə satılması bu qarşılaşmaya göstərilən böyük maraqla yanaşı, Azərbaycan xalqının çətin gündə qardaş Türkiyə ilə sarsılmaz həmrəylik nümayiş etdirməsinin də əyani təsdiqidir.

**AZƏRTAC**






## Naxçıvanda Elm Günü münasibətilə alim və ziyalılarla görüş olub



Martın 27-də – Elm Günündə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli muxtar respublikanın elm xadimləri və ziyalıları ilə görüşüb.

Səlahiyyətli nümayəndə Elm Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib, ümumi inkişafın təmin olunması və kadr hazırlığı sahəsində elm xadimlərinin və ziyalıların qarşısında duran vəzifələrdən danışıb, elmi yanaşmanın vacibliyini vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Bioresurslar İnstitutunun baş elmi işçisi, akademik Tariyel Talıbov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Naxçıvan Dövlət Universitetinin Elm və İnnovasiyalar Bölməsinin müdiri Elnarə Allahverdiyeva, Naxçıvan Dövlət Universitetinin müəllimi Nicat Yaqubov, "Naxçıvan" Universitetinin rektoru Anar Kazımov və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Vəli Baxşəliyev çıxış edərək elmin inkişafı ilə əlaqədar təkliflərini diqqətə çatdırıblar.

Səlahiyyətli nümayəndə tədbirə yekun vuraraq elm xadimləri və ziyalılara təşəkkürünü bildirib, təkliflərin sistemləşdirilərək dəyərləndiriləcəyini qeyd edib.

**"Şərq qapısı"**

## AMEA Naxçıvan Bölməsində Elm Günü qeyd olunub

*AMEA Naxçıvan Bölməsində Elm Gününə həsr olunmuş tədbir keçirilib. Bölmənin bir qrup əməkdaşı əvvəlcə Azərbaycan elminin inkişafında misilsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsi önünə gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyini ziyarət ediblər.*

Sonra AMEA Naxçıvan Bölməsində bölmə tərəfindən nəşrə hazırlanmış əsərlərdən ibarət sərgiyə baxış olub.

Tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik qeyd edib ki, ölkə başçısı cənab İlham Əliyevin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə martın 27-si Azərbaycanda "Elm Günü" kimi təsis olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının yarandığı bu əlamətdar günün dövlət səviyyəsində qeyd olunması ölkəmizdə elmin inkişafına, elm adamlarına göstərilən diqqət və qayğının təzahürüdür.

Elmin cəmiyyətin inkişafındakı mühüm rolundan danışan akademik ölkəmizdə ötən əsrin 20-ci illərində Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılmasından başlayaraq günümüzədək elmin keçdiyi inkişaf yolu barədə yığcam məlumat verib, AMEA-nın 78 illik fəaliyyəti dövründə elmimizə verdiyi töhfələrdən danışıb. Diqqətə çatdırılıb ki, akademiyanın inkişafının ən əlamətdar dövrü məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf edir.

Akademik İsmayıl Hacıyev ötən əsrin 70-80-ci illərində Azərbaycanda elmin inkişafı istiqamətində görülən məqsədyönlü işlərdən bəhs edərək vurğulayıb ki, elmin inkişafına dövlət qayğısı Ümummilli Liderin ölkəyə rəhbərliyinin ikinci dövründə də davam edib. AMEA Naxçıvan Bölməsinin yaradılması da həmin dövrə təsadüf edir. Bölmənin yaradılması Naxçıvanın geniş və əhatəli tədqiqi məqsədi daşımış, ötən dövr ərzində uğurlu elmi nəticələr əldə olunmuş, 11 minə yaxın elmi əsər ərsəyə gəlmişdir.



Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə elmə göstərilən dövlət qayğısının davam etdirildiyini qeyd edən akademik ölkə başçısının 2022-ci il 28 iyul tarixli Fərmanının elmin gələcək inkişafındakı rolundan söz açıb.

Çıxışının sonunda İsmayıl Hacıyev bölmə əməkdaşlarının timsalında elmə töhfə verən alim və tədqiqatçıları bu əlamətdar gün münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırıb.

AMEA-nın müxbir üzvləri – bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Hacıfəxrəddin Səfərli "Naxçıvanda tarix elminin inkişafında AMEA Naxçıvan Bölməsinin rolu", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru Əbülfəz Quliyev "Naxçıvanda humanitar elmlərin inkişafında AMEA Naxçıvan Bölməsinin rolu" mövzusunda məruzələr ediblər. Sonra Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilovun, bölmə aparatının Elm və təhsil şöbəsinin müdiri, dosent Orxan Bağırov çıxışları dinlənilib.

Məruzə və çıxışlarda Naxçıvan Bölməsinin tərkibində fəaliyyət göstərən üç elmi-tədqiqat müəssisəsinin fəaliyyəti əhatəli təhlil olunub. Naxçıvan Bölməsində həyata keçirilən kadr hazırlığı, beynəlxalq aləmə inteqrasiya, aparılan beynəlxalq və respublika əhəmiyyətli arxeoloji ekspedisiyalar və başqa mühüm məsələlərə nəzər salınıb. Bölmə alimlərinin aldığı patentlərdən, qalib olduqları qrant layihələrdən, beynəlxalq əməkdaşlıq sahəsindəki uğurlarından söz açılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*XX əsr Azərbaycan xalqının həyatında baş verən bir sıra uğurlu hadisələrlə yadda qalmışdır. Bu əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin sürətlə inkişaf etməsidir. 1945-ci ildə yaradılmış Azərbaycan Elmlər Akademiyası şərəfli inkişaf yolu keçmiş və Azərbaycan elminin baş qərargahı adını qazanmışdır. Elmimizin ən uğurlu illəri "Heydər Əliyev İli"ndə 100 illiyi ümumxalq səviyyəsində qeyd olunan Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf edir.*

*2023-cü il "Heydər Əliyev İli"dir*

# Ulu Öndər Heydər Əliyev Naxçıvanda elmin inkişafının hamisidir

Azərbaycan elminin formalaşması və inkişafında Naxçıvan diyarının da özünəməxsus xidmətləri olmuşdur. Bu diyar qədimdən Azərbaycanın mühüm elm mərkəzlərindən biri kimi tanınmışdır. Naxçıvan torpağı orta əsrlərdə Azərbaycan elminə təkcə ölkəmizdə deyil, bütün Yaxın və Orta Şərqdə şöhrət qazanmış onlarla görkəmli alim, mütəfəkkir, filosof, hüquqşünas, filoloq, tarixçi və sair bəxş etmişdir. Əhməd ibn Hacəf Nəşəvi, Əkmələddin Naxçıvani, Kəmaləddin Naxçıvani, Nəcməddin Naxçıvani, İzzəddin Naxçıvani, Həsən ibn Ömər Naxçıvani, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, Fəxrəddin Naxçıvani, Baba Nemətullah Naxçıvani, Fəzlullah Nəimi və başqaları bütün Şərq dünyasının elm xəzinəsinə dəyərli töhfələr vermişlər. Böyük elm xadimi kimi şöhrət qazanmış Nəsirəddin Tusinin də tərcümeyi-halı Naxçıvanla əlaqədardır.

Ötən əsrin 20-ci illəri milli mədəniyyətimizin inkişaf salnaməsində özünəməxsus parlaq izlər salmış, gənc Azərbaycan elminin formalaşmasında mühüm rol oynamışdır. Azərbaycanı hərtərəfli, elmi şəkildə öyrənmək məqsədilə yaradılan bir sıra cəmiyyət və elmi təşkilatlar ilkin fəaliyyətə məhz ötən əsrin iyirminci illərində başlamışdır. Azərbaycan milli elmi fikrinin formalaşmasında son dərəcə böyük rol oynamış belə elmi təşkilatlardan biri də Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti (1923-1929) olmuşdur. Bu cəmiyyətin Naxçıvan şöbəsinin yaradılması diyarın zəngin sərvətlərinin aşkara çıxarılmasında, tarixi, elmi və mədəni irsinin öyrənilməsində əhəmiyyətli rol oynamışdır. Azərbaycan Elmlər Akademiyasının yaradılması muxtar respublikada da elmin inkişafına güclü təkan vermişdir. Lakin İkinci Dünya müharibəsindən sonrakı illərdə Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibət bəsləməsi səbəbindən muxtar respublikanın inkişafında geriləmələr baş vermiş və bu da diyarın sosial-mədəni həyatına və regionda elmin inkişafına mənfi təsir göstərmişdir. Xüsusən heç bir əsaslandırılmış səbəb olmadan 1953-cü ildə Naxçıvan Müəllimlər İnstitutunun bağlanması muxtar respublikada formalaşmış elmi potensialın az sonra dağılmasına gətirib çıxarmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin respublikaya rəhbərliyə gəldiyi 1969-cu ildən başlayaraq cəmiyyət həyatının digər sahələri ilə yanaşı, elmin inkişaf etdirilməsinə də həmişə xüsusi diqqət yetirilmiş və ona daim qayğı göstərilmişdir. Diqqətə layiqdir ki, yüksək intellektə malik görkəmli dövlət xadimi Heydər Əliyev öz fəaliyyətində və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanmışdır. O, Azərbaycan cəmiyyətinin, mənsub olduğu xalqın inkişafını elmdə, yüksək intellektin formalaşmasında görmüşdür. Bunun üçün elmin inkişafına mane olan bütün halların aradan qaldırılması və onun inkişafının təmin edilməsi üçün əsaslı tədbirlər həyata keçirilmişdir. Bundan sonra respublikada, sözün həqiqi mənasında, ciddi elmi irəliləyişlər baş vermiş, bu sahədə nəzərəçarpacaq böyük uğurlar qazanılmışdır. Yeni elmi mərkəzlər, elmi-tədqiqat institutları yaradılmış və onları yüksək səviyyəli kadrlarla, yeni texnologiya ilə təmin etmək üçün əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Xüsusən minlərlə gəncin keçmiş SSRİ-nin ali təhsil müəssisələrinə təhsil almağa göndərilməsi yeni nəsil elmi kadrların hazırlanmasına sanballı töhfələr vermişdir. Bütün bunların nəticəsində XX əsrin 70-ci illərindən etibarən Azərbaycanda güclü elmi potensial formalaşmış, respublika Elmlər Akademiyası milli elmin baş qərargahı səviyyəsinə çatdırılmış, xüsusi istiqamət kimi ali məktəb elmi böyük sürətlə inkişaf etdirilmişdir.

Bundan başqa, vaxtilə regionların inkişafına lazımi səviyyədə fikir verilmədiyindən respublikanın elmi-texniki sahələri, ənənəvi olaraq Bakıda yerləşirdi. Lakin bir çox regionlarda yüksək qabiliyyətli gənc mütəxəssislər, elmi dərəcə qazanmış kadrlar yaşayıb fəaliyyət göstərirdi. Məhz dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə bəzi regionlarda, o cümlədən Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Şəki və başqa şəhərlərdə elmi-texniki bazaların təşkil edilməsinin qərara alınması, eyni zamanda həmin şəhərlərdə respublika Elmlər Akademiyasının elmi bölmələrinin yaradılması Bakı ilə yanaşı, Azərbaycanın ayrı-ayrı regionlarında da elmin inkişafına ciddi təkan vermişdir. Məqsədyönlü, düşünülmüş regional elmi proqramın hazırlanması və həyata keçirilməsi Ulu Öndərin tarixi xidmətlərindən biridir. Belə bölmələrdən biri də Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 7 iyul 1972-ci il tarixli Qərarı əsasında təşkil edilmiş Naxçıvan Regional Elmi Mərkəzi idi.

Regional Elmi Mərkəzin əsas vəzifəsi Naxçıvan Muxtar Respublikasının təbii xammal ehtiyatlarının kompleks şəkildə öyrənilməsi və səmərəli istifadə olunmasının elmi əsaslarının işlənib hazırlanması, muxtar respublikanın sosial-iqtisadi inkişafını, tarixini, arxeoloji, epiqrafik, etnoqrafik və folklor abidələrini öyrənməkdən ibarət idi.

Naxçıvan Muxtar Respublikası coğrafi baxımdan elə ərazidə yerləşib ki, onun Azərbaycanın digər regionları ilə birbaşa əlaqəsi yoxdur. Bu isə regionda bir çox problemlərin həllinə böyük maneə törədir. Odur ki, Naxçıvanda belə bir elmi mərkəzin yaradılması təkcə elm və mədəniyyətin inkişafı baxımından deyil, Azərbaycanın bir dövlət olaraq strateji maraqları nöqteyi-nəzərindən də zəruri idi. Həmin zərurəti görkəmli dövlət xadimi Heydər Əliyev vaxtında hiss etmiş və bunun reallaşması üçün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, Naxçıvan Regional Elmi Mərkəzi üçün xüsusi bina ayrılmış, onun yerli kadrlarla təmin edilməsinə və maddi-texniki bazasının formalaşdırılmasına ciddi diqqət yetirilmişdir.

Bundan başqa, Naxçıvan Elmi Mərkəzində fundamental elmin müxtəlif sahələri, xüsusən kimya, biologiya, fizika-riyaziyyat sahələri üzrə tədqiqatlar aparılmış, burada muxtar respublikanın təbii və mənəvi sərvətlərinin, tarix və mədəniyyət abidələrinin öyrənilməsi sahəsində səmərəli işlər görülmüş, faydalı elmi nəticələr əldə edilmişdir.

Regionda elmin inkişafında 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi yaradılan, 1972-ci ildə müstəqil Pedaqoji İnstituta, 1990-cı ildə isə Dövlət Universitetinə çevrilən Naxçıvan Dövlət Universitetinin də müstəsna rolu vardır. Bu ali təhsil ocağında formalaşmış münbit elmi mühit elmi dərəcəli, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına, elm sahəsində ciddi nailiyyətlərin qazanılmasına müsbət təsir göstərmişdir.

70-ci illərdə Naxçıvan Muxtar Respublikasında Regional Elmi Mərkəzlə yanaşı, digər elmi-tədqiqat müəssisələrinin də yaradılmasına və daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir. Yeni təşkil olunmuş Naxçıvan Kompleks Zona Təcrübə Stansiyası, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası və Naxçıvan "Araz" Elmi-İstehsalat Birliyi kimi elmi qurumların fəaliyyəti sa-



yəsində Naxçıvan Muxtar Respublikasında iqtisadiyyat, baytarlıq, kənd təsərrüfatı sahələrində elmi nailiyyətlər, irəliləyişlər qazanılmışdır.

Ulu Öndərin tövsiyə və qayğısı ilə hələ 70-ci illərdə Şamaxı Astrofizika Rəsədxanasının Batabat stansiyası yaradılmışdır. Bu elmi-tədqiqat müəssisəsi Şahbuz rayonunun Biçənək kəndi yaxınlığında dəniz səviyyəsindən 2050 metr hündürlükdə yerləşmişdir. Qısa müddətdə həmin ərazinin aqroiqlimi öyrənilmiş, ulduz müşahidələri üçün həmin rayonun son dərəcə əlverişliyi aydın olmuşdur. 20 santimetrlik reflektor və kornoqrafda aparılmış müşahidələr olduqca keyfiyyətli təsir bağışlamışdır.

1976-cı ildə Ümummilli Lider Heydər Əliyev Batabat stansiyasının işi ilə maraqlanmış, onun qurğuları ilə tanış olmuş, Elmlər Akademiyasının ovaxtkı rəhbərliyinə stansiyanın fəaliyyətinin gücləndirilməsi barədə konkret göstərişlər vermişdir. Bundan sonra Batabat stansiyasının fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, orada mütəxəssislər yetişdirilmiş, bir neçə nəfər doktorluq və namizədlik dissertasiyaları müdafiə etmişdir. Rəsədxananın elmi əməkdaşları günəş sistemindəki kiçik cisimlərin dinamik və fiziki xüsusiyyətlərini öyrənmiş, apardıqları elmi-tədqiqat işlərinin nəticələrini əks etdirən məqalələrini dünyanın, eləcə də keçmiş SSRİ-nin nüfuzlu elmi jurnallarında dərc etdirmişlər.

90-cı illərin əvvəllərində respublikada yaranmış ictimai-siyasi vəziyyət Naxçıvanda da elmi potensialın zəifləməsinə, bir sıra elm adamlarının iş üçün xarici ölkələrə getməsinə səbəb oldu. Lakin görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə bölgənin ərazi taleyi məsələsini həll etməklə yanaşı, həm də blokada şəraitində yaşayan muxtar respublika sakinlərinin sosial qayğıları, bölgə iqtisadiyyatının inkişafı ilə ciddi məşğul olur, elm adamları, ziyalılar, təhsil işçiləri ilə mütəmadi olaraq görüşür, öz məsləhət və tövsiyələrini verirdi. Dahi şəxsiyyətin 1992-ci ildə Naxçıvan Dövlət Universitetində "Bazar iqtisadiyyatına keçid şəraitində iqtisadi əlaqələrin və sərhədyanı ticarətin təşkili" mövzusunda keçirilmiş beynəlxalq simpoziumda iştirakı, habelə həmin elmi tədbirdəki dərinməzmunlu çıxışı uzaqgörən böyük siyasətçinin çətin şəraitdə regionda elmin, ziyalılığın inkişafına göstərdiyi qayğının əməli ifadəsi idi.

Naxçıvan Muxtar Respublikasının bitki örtüyünün zənginliyi, taxılçılığın inkişafı burada Azərbaycan Elmlər Akademiyasının Genetika və Seleksiya İnstitutunun Naxçıvan Elmi-Tədqiqat Bazasının yaradılmasını zəruri etmişdir. Burada çalışan elmi işçilər Naxçıvan Muxtar Respublikasında nəsli kəsilməkdə olan meyvələrin, giləmeyvələrin, tərəvəz və bostan bitkilərinin, texniki bitkilərin genofondunu yaratmış, xəstəliyə davamlı, iqlimə uyğunlaşan yeni növ bitkilərin və taxıl sortlarının introduksiyası ilə məşğul olmuşlar.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan kimi, ilk növbədə, Elmlər Akademiyasında ölkənin intellektual elitası ilə görüşmüşdür. Bu tarixi görüş respublikadakı siyasi böhranın mütləq həll ediləcəyi inamı ilə yanaşı, Elmlər Akademiyasının ümummilli nüfuzunun qaytarılması üçün də ciddi addıma çevrilmişdir. Bundan sonra respublikada elmi mühit yenidən canlanmış, elm adamları 70-80-ci illərdə olduğu kimi, yenə də ciddi elmi axtarışlarını davam etdirməyə başlamışlar.

Respublikada yaranmış əlverişli şəraitdən istifadə edən muxtar respublikanın elm adamları "Uluslararası qaynaqlarda Naxçıvan" mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsinə (1996) nail olmuşlar. Bu Beynəlxalq Simpozium muxtar respublikada elmin yeni inkişafına təkan vermişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin simpozium iştirakçılarına göndərdiyi təbrik məktubunda deyilirdi: *"Öz əlverişli coğrafi mövqeyi, təkrarolunmaz mədəniyyət və incəsənət abidələri, istedadlı alim və ədibləri ilə seçilən bu diyar dünyanın bir çox tarixçi, səyyah və alimlərinin diqqətini cəlb etmiş, onların əsərlərində dərin iz qoymuş və özünəməxsus yer tutmuşdur. Həmin qaynaqların araşdırılması, onlarda Naxçıvan haqqında qeyd olunmuş məlumatların toplanılıb tədqiq və nəşr olunması Azərbaycan tarixinin obyektiv, elmi şəkildə işlənib hazırlanması üçün misilsiz əhəmiyyət kəsb edir".*

Məhz bundan sonra Naxçıvan Regional Elmi Mərkəzində, Naxçıvan Dövlət Universitetində və başqa elmi müəssisələrdə qədim diyarın hərtərəfli araşdırılması, xüsusən ictimai və humanitar elm sahələri üzrə genişmiqyaslı tədqiqatların aparılması sahəsində ciddi dirçəliş və irəliləyiş dövrü başlanmışdır. Qısa müddətdə "Azərbaycan tarixində Naxçıvan", "Naxçıvan tarixinin səhifələri" məqalələr toplularının nəşr olunması, çoxsaylı dissertasiyaların, kitabların, elmi məqalələrin meydana çıxması regionda elmin inkişafında böyük potensialın mövcudluğunu aşkara çıxarmışdır.

1999-cu ildə Naxçıvan Muxtar Respublikasında yeni bir elmi qurum – Naxçıvan Elm və Texnika Mərkəzi yaradılmışdır. Bu mərkəzdə muxtar respublikada yayılmış dərman bitkilərinin toplanması, öyrənilməsi, onlardan dərman preparatları, tibdə və məişətdə geniş istifadə edilən cövhər, krem və yağlar, habelə bölgənin mineral xammallarının kimyəvi emalı yolu ilə müxtəlif tərkibli duzlar alınması sahəsində tədqiqatlar aparılmış, uğurlu nəticələr əldə olunmuşdur.

Elmin inkişafını daim diqqət mərkəzində saxlayan Ulu Öndər Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətini nəzərə alaraq 2002-ci il 7 avqust tarixdə AMEA Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalamışdır. Naxçıvan Bölməsinin yaradılması barədə bu sərəncam regionun müxtəlif problemlərinin araşdırılıb öyrənilməsinə, burada gənc istedadların elm sahəsinə daha mütəmadi cəlb olunmasına, bütövlükdə, respublikanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə çox mühüm təsir göstərmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas zalında AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə ölkə Prezidenti Heydər Əliyev bölmənin qarşısında duran vəzifələrdən söz açaraq demişdir: ***"Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin... hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, tarixi abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də, düz olaraq deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var... "***

Qeyd olunan sərəncama müvafiq olaraq AMEA Naxçıvan Bölməsində 6 elmi-tədqiqat institutu yaradılmışdır. Naxçıvan Bölməsinin qarşısında qoyulan vəzifələr elmi əməkdaşlar tərəfindən yüksək səviyyədə, məsul dövlət tapşırığı kimi qəbul edilmiş və uğurla yerinə yetirilməkdədir. Bölmənin 20 illik fəaliyyəti dövründə (2003-2022) 30-dan artıq şöbə və laboratoriyada 2 akademik, 8 müxbir üzv, 7 elmlər doktoru, 60-a yaxın fəlsəfə doktoru və 31 doktorant və dissertant ciddi elmi-tədqiqat işi ilə məşğul olmuşlar.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən tədqiqatçılar qədim diyarın tarixi, etnoqrafiyası, arxeologiyası, ədəbi-mədəni mühiti, memarlıq abidələri, bioresursları, iqtisadiyyatı, təbii ehtiyatları, ekologiyası yeni istiqamətdə, daha dolğun və əhatəli şəkildə araşdırılıb ümumiləşdirilir, mühüm elmi nəticələr əldə olunur.

Görkəmli dövlət xadimi Heydər Əliyev həm 70-80-ci illərdə, həm də ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra həmişə respublika ziyalılarının cəmiyyətdə nüfuzunun artırılmasına diqqət və qayğı göstərmişdir. Bu qayğını Naxçıvan ziyalıları və elm adamları həmişə hiss etmişlər. Elm adamlarına, ziyalılara göstərilən dövlət qayğısının nəticəsidir ki, 60-cı illərin sonlarında Naxçıvanda cəmi 3 elmlər namizədi olduğu halda sonrakı dövr ərzində, xüsusən son illərdə buradan Milli Elmlər Akademiyasına 3 həqiqi və 13 müxbir üzv, Nyu-York Elmlər Akademiyasına 4 həqiqi üzv, Türkiyə Cümhuriyyətinin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumuna 1 müxbir üzv seçilmiş və 30-a yaxın elmlər doktoru, 200 nəfərdən çox elmlər namizədi (fəlsəfə doktoru) formalaşmışdır. Bir vaxtlar aspirant hazırlığına şübhə ilə yanaşıldığı halda, indi Naxçıvanda yaradılmış Dissertasiya şuralarında böyük uğurla doktorluq və namizədlik dissertasiyaları müdafiə olunur. Elm adamlarından bir qrupuna yüksək fəxri adlar, mükafatlar, orden və medallar verilmiş, 3 nəfər Milli Məclisə, 15 elm və təhsil işçisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elm və təhsil işçilərinə göstərdiyi böyük qayğı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da elmin, milli təhsilin, ictimai fikrin yeni inkişafına ciddi təkan verir.

*Şərəfli inkişaf yolu keçən Azərbaycan Elmlər Akademiyası yüksək status alaraq Milli Elmlər Akademiyasına və elmin inkişafı isə müstəqil ölkəmizin real tələbatına çevrilmişdir. Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərən elm adamları da ciddi elmi-tədqiqat işləri ilə Azərbaycan elmini zənginləşdirirlər.*

**İsmayıl HACIYEV**

***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Elimizə Novruz gəlib, yaz gəlib, ruha qida, qəlbə şəfqət bahar gəlib, saz gəlib

## *Xoş müjdəli, yaz ətirli Novruz bayramından bahar təravətli söhbətlər*

***Qədəmləri ilə yurdumuza xoşbəxtlik, başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu gətirən, eyni zamanda sülhə və firavan həyata, insanlara sevgi bəsləməyə səsləyən əvəzsiz bahar bayramımızdır Novruz... Gur tonqallarıyla gözoxşayan, könül titrədən, noğul-nabatlı xonçaları, yamyaşıl səmənisi, mübarək niyyətləri, tumurcuq diləkləri ilə, bir sözlə, toy-bayram büsatı ilə qədəm qoydu yurdumuza builki Novruz. Bütün Türk dünyasında qeyd olunan Novruzda insanlar gələcəyə, arzularının, diləklərinin gerçəkləşəcəyinə böyük ümidlər bəsləyirlər.***



Ana Vətənimizin hər yerində olduğu kimi, qədim diyarımız Naxçıvanda da bu Novruzda əsl bayram əhvali-ruhiyyəsi, sevinci yaşandı. Tarixin o üzündən boylanan, dünyanın bəzəyi Naxçıvan şəhərinin köksündə ucalıb türk qadınının əsalətini, böyüklüyünü əsrlərdən bu günümüzə daşıyan Möminə xatın türbəsinin ətrafında – Əcəmi yadigarı tarixi seyrəngahda elimizin qədim bayramı Novruz böyük coşqu ilə qeyd olundu.

19-26 mart tarixlərdə ilk dəfə təşkil edilən möhtəşəm "Novruz şəhərciyi"ndəki bayram coşqusunu qəzetimizin çoxsaylı oxucuları ilə bölüşmək üçün bir neçə gün tədbirdə iştirak edib, qələbəliyə qeyri-adi sevinc, fərəh, ümid dolu bayram ab-havasına şahidlik etdik.

Möminə xatın türbəsinin ətrafında bəzədilən, qədim türk ənənələrini özündə əks etdirən Novruzun bərəkət ağacı da buraya üz tutan qonaqların diqqətini cəlb etdi. Qədimdə hələ çiçək açmamış, oyanmamış ağaclar müxtəlif bəzəkli bezlər, şirniyyatlarla bəzədilər, gələn ilin ruzili-bərəkətli olması arzu edilərdi. Bu il ilk dəfə Naxçıvanda "Novruz şəhərciyi"ndə bu milli adətimiz nümayiş olundu. Burada iştirak edən şirkətlər də müxtəlif ağacları öz məhsulları ilə bəzəmişdi. Milli personajlarımızın, folklor nümunələrimizin, canlı musiqilərin gün boyunca səslənişi, açıq səma altında kinofilmlərin, uşaq tamaşalarının nümayişi, şən klounların balacalara bəxş etdiyi gülüşlər hər bir şənlik iştirakçısını bayram ovqatına kökləyir, insanların simasındakı gülüş, Novruz sevinci kənardan sezilirdi. Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı, Naxçıvan Şəhər Mədəniyyət İdarəsi, Naxçıvan Dövlət Uşaq və Kukla teatrları digər mədəniyyət kollektivləri öz çıxışları ilə hər kəsi valeh edirdi. Şənliyə üz tutanlar arasında bu bayram sevincini yaşamağa ən çox mənəvi haqqı olan şəhid ailələrimiz, qazilərimiz, Vətən müharibəsi iştirakçıları, eləcə də yerli sakinlərlə yanaşı, ölkəmizin başqa şəhər və rayonlarından gələnlər, hətta əcnəbi qonaqlar da var idi. Bayram arzularını öyrənmək üçün onlarla həmsöhbət olmağa çalışdıq.

İlk müsahibimiz 44 günlük Vətən müharibəsinin canlı əfsanələrindən olan Şahbuz rayon sakini, qazimiz ***Mirkənan Kərimov***dur.



O, balaca qızı ilə şənliyə gəlmişdi. Onun gözlərindəki qeyri-adi sevinc, xoşbəxtlik işıltısı istər-istəməz ətrafdakılara da sirayət edirdi. Həmsöhbətim 30 il həsrətini çəkdiyimiz, işğaldan azad olunmuş torpaqlarımızdan danışır, Novruzu Zəfər məğrurluğu ilə qeyd etdiyimizi xüsusi vurğulayırdı. Qazimiz söhbət əsnasında döyüşlər zamanı Vətən uğrunda şəhid düşmüş yoldaşlarından da söz açdı. O "Biz bu bayramı bu cür ürək açıqlığı ilə qeyd ediriksə, şəhidlərimizə və gözü yolda qalmış ailələrinə borcluyuq", – dedi. O, ətrafımıza toplaşan insanlara xoş arzularını bildirdi, "Biz xalqımız hər zaman belə şən bayram əhvali-ruhiyyəsində olsun deyə qanımız, canımız bahasına Böyük Zəfərə imza atmışıq", – dedi.

Naxçıvan şəhər sakini, 44 günlük Vətən müharibəsi şəhidimiz Elşən Orucovun qızı ***Aygün*** balamız anası və balaca bacısı ilə birgə gəlmişdi bayram şənliyinə. Seyrəngaha daxil olarkən onları tanıyan hər kəsin böyük sevgi ilə qarşıladığını, hətta hədiyyələr də verdiklərini söylədi. Atasının yoxluğu onları üzsə də, onun adı ilə fəxr etdiklərini, bir qəhrəmanın qızları olmaqdan qürur duyduqlarını dilə gətirdi.

Digər müsahiblərimiz Bakı şəhərindən Sədərək rayonunda hərbi xidmətdə olan övladlarını görməyə gəliblər. Əsgər atası ***Yusif Əliyev*** dedi: – Naxçıvanın yeri daim fərqli olub Azərbaycanın tarixində. Bu diyarın adı çəkiləndə daim qəhrəman bir yurd canlanıb gözümüzdə. Oğlumuzun burada həqiqi xidmət edəcəyini eşidəndə çox sevindim. Artıq altı aydır ki, oğlum düşmənlə üz-üzə Vətəni qoruyur. Qürur duyuram ki, o, Ulu Öndərin doğulduğu torpaqda öz şərəfli borcunu yerinə yetirir. Novruz bayramı münasibətilə ikigünlük məzuniyyət verildiyini öyrənəndə ailəlikcə Naxçıvana gəldik. Şəhəri gəzib-dolaşdıqca insan qədimliyin və müasirliyin vəhdətindən zövq alır. Novruz şənliyinin təşkili çox gözəldir. Böyük bir ərazini əhatə edən şənlikdə açıq səma altında film izlədik. Axşam İlqar Muradovun mahnılarını dinlədik. İsti göyərti kətəsi yedik, bu qədim diyarın şirniyyatlarından daddıq. Köz üzərində qoyulmuş sacda bişən lavaşla Naxçıvan pendirinin dadı damağımızda qaldı. Hər şey – folklorumuz, elimizin gözəl adətləri burada öz əksini tapıb. Mənəvi istirahət üçün möhtəşəm fürsətdir. Bütün həmvətənlərimizə bura gəlib, bu gözəlliyə şahid olmalarını tövsiyə edirəm.

"Əcəmi seyrəngahı"nı bir az gəzib dolanmışdıq ki, qarşımıza Vətən keşikçilərimiz çıxdı. Hərbi xidmətlərində fərqlənən bu gənclərimizə bayramı ailələri ilə birgə keçirmələri üçün bir



neçə günlüyə məzuniyyət verilmişdi. Öyrəndik ki, Naxçıvanda hərbi xidmətdə olan ***Fariz Əzimov*** Bakı şəhərindəndir. İlk dəfə idi, bayramı anası ilə birgə Naxçıvan şəhərində qeyd edirdilər. Bizimlə bayram təbriklərini bölüşərkən dedi: "Nə qədər ki biz Vətən keşikçiləri varıq, xalqımız hər zaman bayramlarımızı ənənəvi qaydada, təntənə ilə qeyd edəcək". Əsgərimiz başda Ali Baş Komandan cənab İlham Əliyev olmaqla xalqımızı milli bayramımız münasibətilə ürəkdən təbrik edib, xoş arzularını bölüşdü.

Bayram münasibətilə yaxın qohumlarını ziyarətə gələn Bakı şəhər sakini ***Zenfira Hüseynova*** dedi: – Sevindirici haldır ki, milli-mənəvi dəyərlərimiz bu qədim diyarda hələ də öz möhtəşəmliyi ilə yaşadılır və böyük təntənə ilə qeyd olunur. Hesab edirəm ki, hər kəs ömründə bir dəfə də olsa, bu bayramı muxtar respublikada qarşılamalı və buradakı gözəlliklərlə tanış olmalıdır.

Digər bir müsahibimiz, qədim yurdumuza qardaş Türkiyədən qonaq gələn ***Aydın Akpınar*** ixtisasca tarixçidir. O, 11 yaşlı qızını Duzdağ Fizioterapiya Mərkəzinə müalicəyə gətirib. Fürsətdən istifadə edib övladını şəhəri də gəzdirdiyini dedi: – Qədim və əsrarəngiz, tarixi bir yerdə baş tutan el bayramına gələnlər Novruz adət-ənənələri ilə tanış olmaqla bərabər, qədim sənət incisinin də tamaşaçısı olur. Burada yerləşən Xan sarayı, Möminə xatın türbəsi, Açıq Səma Altında Muzeyi seyr etdik, bir sözlə, möhtəşəmdir. Azərbaycan bizim qanımızdır, canımızdan bir parçadır, belə gözəl bir yaz günündə burada olmaq, insanların gülən üzlərini seyr etmək çox sevindiricidir. Bu bahar Türk dünyasına sevinc və xoşbəxtlik gətirsin.

Türkiyə vətəndaşı olan, əslən azərbaycanlı xanım ***Sevinc Akın*** 25 ildir ki, Türkiyədə yaşadığını və bayram ərəfələrində ürəyinin bura üçün döyündüyünü, Naxçıvanda, böyüyüb boya-başa çatdığı yerdə olmanın sevincini yaşadığını söylədi: – Aradan uzun illər keçsə də, adət-ənənələrimizin bu ulu diyarda olduğu kimi qorunub yaşadılması qürurvericidir. Uşaqlığımdakı sevinc və həyəcanı eynilə yenidən yaşadım. Builki bayramı unutmayacağam. Tədbir zamanı Kosa və Keçəlin deyişmələri, Bahar qızın xoş avazı, şeir söyləyən balacalarımız Novruz şənliyini sevinc sədaları ilə daha da coşdururdu.

Novruz bayramı özündə həm də mənəvi dəyərlərimizi cəmləyir. Bunlardan biri də böyüyə-kiçiyə hörmət, yardımlaşmalardır. Günlərdir, diqqətimizi çəkən məqamlardan biri də bayram şənliyində hər kəsin rəğbətini qazanmış könüllülər oldu. Könüllü xidmətləriylə yanaşı, onların çalıb-oynamaqları, uşaqların sevincinə sevinc qatmaları bayramı daha da rəngarəng edirdi. Onlarla həmsöhbət olub, bayram arzularını dinlədik. Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsinin II kurs tələbəsi, Gəncə şəhərindən olan ***Eldar Əliyev***, İqtisadiyyat və idarəetmə fakültəsinin ikinci kurs tələbəsi ***Aygün Yusifova*** bildirdilər ki, tədbir başlayandan könüllü gənclərlə bərabər, şəhərcikdəki bayram tədbirinə gələn xarici qonaqlara mənalı istirahət etməkdə dəstək olurlar. Bununla bərabər istehsal müəssisələrinin də stendlərində köməyə ehtiyac yarandıqda yardım edirlər. Bir sözlə, şəhərcikdə həm əyləncəli, həm də faydalı vaxt keçirirlər. Könüllü gənclərimizdən Naxçıvan Dövlət Universitetinin I kurs tələbəsi, Tərtər rayon sakini ***Səbinə Quliyeva*** Naxçıvanda Novruzun qədim adət-ənənələrinə yaxından bələd olduğunu da söylədi. Görünən o idi ki, könüllülük bu gənclərimizə xüsusi zövq verir. Çünki onlara tapşırılan işləri xüsusi bir zövqlə, pozitiv enerji ilə yerinə yetirir, şənliyə gələn hər kəsdə məmnunluq hissi yaradırdılar.




Səhər saatlarından başlanıb və axşamadək davam edən 8 günlük tədbirdə muxtar respublikanın sakinlərinə ailə təsərrüfatları və müxtəlif istehsal müəssisələri tərəfindən iaşə xidmətləri də göstərilirdi. Milli mətbəximizin xoş təamlarından hər kəs ağız ləzzəti ilə daddmaq istəyirdi. Bir-birindən gözəl, dadlı, həm də münasib qiymətə satılan şirniyyatlar turistləri buraya cəlb edirdi. Ailə təsərrüfatçısı ***Mailə Bağırova*** bildirdi ki, bayram tədbirinə 15 çeşiddə məhsul gətirib ki, bunlardan şəkərbura, qoğal, paxlava, badambura, tort və



bir çox Novruz şirniyyatları sakinlər tərəfindən daha çox alınır.

Sədərək rayon sakini, ailə təsərrüfatçısı ***Nazirə Əliyeva***nın bayram ərəfəsində hazırladığı 50 çeşid məhsul içərisində dadlı şirniyyatlar, bal, ev yağı və digər təbii məhsullar var idi. Qiymətlərin münasib olması alıcılar tərəfindən müsbət qarşılanırdı. Şərur rayon Zeyvə kənd sakini, ailə təsərrüfatçısı ***Günay Qasımova*** bayram şirniyyatlarını, kətələri satışa çıxarıb. Onun sözlərinə görə artıq üç ilə yaxındır ki, bu işlə məşğuldur. Yaradılan şəraitdən istifadə edib həm ailə büdcəsini gücləndirir, həm də məşğulluğunu təmin edir. Bu il təşkil olunan bayram şənliyinə diqqət daha çoxdur. Havanın mülayim keçməsi və təşkilatçılar tərəfindən müxtəlif əyləncələrin təşkil olunması insanların buraya olan həvəsini daha da artırır. Ailə təsərrüfatçıları ilə söhbətimiz zamanı vurğuladılar ki, burada hazırlanan yerli məhsullar tədbirdə iştirak edən xarici qonaqların daha çox diqqətini çəkir.

"Novruz şəhərciyi"ndə təşkilatçı şirkət "Element VS"-in təsisçilərindən olan ***Adəm Yunisov***la həmsöhbət olduq. O bildirdi ki, 19-26 mart tarixlərdə saat $10^{00}$-dan $22^{00}$-a qədər davam edən tədbirlərdə əhalinin mədəni istirahəti, bayram sevinci yaşaması üçün bütün təşkilati işlər səy və bacarıqla görülüb. Novruz küçəsi və Novruz bazarından ibarət şəhərcik mədəni-kütləvi tədbirlərlə yanaşı, Novruz şirniyyatlarından milli təamlara, milli suvenirlərdən Naxçıvan istehsalı məhsullara, kənd təsərrüfatı məhsullarından fast foodlara və muxtar respublikada fəaliyyət göstərən brend məhsullarının satışına, ümumi yarmarkaya qədər alış-verişə aid hər şeyi özündə birləşdirirdi.

"Novruz şəhərciyi"ndə möhtəşəm konsert proqramları isə bayram iştirakçılarının xüsusilə ürəyincə oldu, bayrama əsl coşqu qatdı. Azərbaycan Respublikasının Xalq artisti İlqar Muradov, həmçinin Eldar Qasımov, Tofiq Hacıyev, Ceyhun Ares, Hiss öz mahnıları ilə sakinlərin zövqünü oxşadı. Novruz bayramı çərçivəsində Naxçıvan Rəssamlar Birliyinin Gənc Rəssamlar Bölməsi üzvlərinin "Novruz gəldi, yaz gəldi" adlı sərgi müsabiqəsi keçirildi. Çəkilən əsərlərin satışından əldə olunan vəsait "Yaşat" fonduna ianə ediləcək. Müsabiqə qalibləri mükafatlandırılıblar. Bundan başqa "Novruz şəhərciyi"ndə qədim türk ənənəsi olan Novruz bərəkət ağacı bəzəyən şirkətlər də mükafatlandırıldılar.

2011-ci ildə Avroviziya mahnı müsabiqəsində qalib olub, Azərbaycan bayrağını yüksəklərə qaldıran Eldar Qasımov öz gözəl mahnıları, gözəl səsi ilə qonaqlara xoş dəqiqələr yaşatdı. Tanınmış müğənni ilə söhbət zamanı dedi ki, ilk dəfə Naxçıvana 10 il bundan öncə gəlib: – Ötən günlərdə burada keçiriləcək Novruz bayramında iştirak etməyə təklif alanda çox sevindim ki, bu qədim diyarı yenə görmək imkanı yarandı. Təyyarə Naxçıvan hava limanına eniş edəndə ilk diqqətimi çəkən təmizlik və sakitlik oldu. Ən əsası isə hava çox gözəldir. Günəşi və istini çox sevirəm, bunu Naxçıvanda gördüm. Axşamkı konsert proqramı da əla keçdi. İnsanların musiqiyə olan hörmətini, sevgi və heyranlığını görmək sevindirici idi. Konsert proqramı bitəndən sonra gənclərin şəxsi sosial şəbəkə səhifəmdə mənə yazdıqları səmimi ifadələr qürurverici idi.

"Novruz şəhərciyi"ndə ifa etdiyi xoş mahnılarla tamaşaçıların rəğbətini qazanan ***Tofiq Hacıyev*** ilə konsert proqramı sonrası həmsöhbət olduq. O dedi ki, buraya ilk dəfə gəlsə də, insanlarımızın səmimiliyi ona bu yurdu sevdirib. Səhnəyə çıxıb ilk mahnıları ifa edəndən tamaşaçı coşqusu ilə qarşılaşdığını deyən



Tofiq Hacıyev onu da vurğuladı ki, belə bir əziz bayramda, dahi rəhbərin 100 illik yubileyi ərəfəsində burada, Ulu Öndərin yurdunda olmaq hər bir mədəniyyət xadimi üçün qürurvericidir. Naxçıvan Vətənimizin bir parçası, ayrılmaz tərkib hissəsidir. Vaxtımız az olduğu üçün bu gözəl diyarı doyunca gəzə bilməsək də, yolüstü dini ibadətgahımız olan Əshabi-kəhfi ziyarət etməyi düşünürük.

*Novruz bayramı xalqımızın əsrlərboyu qeyd etdiyi milli bayramlarımızdandır. Xalqımız totalitar sovet rejimi dövründə belə hər cür məhdudiyyətlərə, qadağa və təqiblərə rəğmən bu bayrama böyük ehtiram göstərib, adət-ənənələri yaşatmaq üçün, sözün əsl mənasında, birlik, bərabərlik nümayiş etdirib. Hər bahar gələrkən torpaqda canlanma yarandığı kimi, xalqımızın arzu-ümidlərinə də inam və coşqu hakim kəsilir. Builki "Novruz şəhərciyi"ndəki bayram təntənəsi naxçıvanlılara əsl bayram sevinci yaşatdı, mənəvi zövq və istirahət bəxş etdi, insanlarda bahar sevgisi ilə qurub-yaratmaq əzmini daha da gücləndirdi. Bütün bunların əsasında isə qalibiyyət məğrurluğu, inkişaf, tərəqqi əzmkarlığı durur. Qoy bu bayram xalqımıza əmin-amanlıq, xoşbəxtlik, firavanlıq gətirsin. Süfrələrimizdən bolluq-bərəkət heç zaman əskik olmasın. Bütöv Azərbaycanımızın başı üstündə dalğalanan üçrəngli bayrağımız daima yüksəklərdə olsun!*

**✍ Ramiyyə ƏKBƏROVA**
**✍ Bülbül QULİYEVA**
**✍ Aysel YUSİFZADƏ**
**Aidə İBRAHİMOVA**
**Sürəyya QƏDİMƏLİYEVA**

## Buraxılış mərasimi keçirilib

*Əlahiddə Ümumqoşun Orduda ixtisas hazırlığı kursları başa çatan gənc əsgərlərin döyüş təyinatlı birləşmə və hissələrə yola salınmaları münasibətilə mərasim keçirilib. Mərasimdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.*



Çıxış edən zabit, əsgər və valideynlər Vətənə xidmət etməyin hər bir gəncin müqəddəs borcu olduğunu bildirib, keçirilən məşğələlərdə peşəkarlaşan gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

General-mayor Məhəmməd Həsənov Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb, gənc əsgər hazırlığı kursunun əhəmiyyətindən və hərbi hissədə xidmətin nümunəvi təşkili üçün yaradılan şəraitdən danışıb.

Bildirilib ki, Əlahiddə Ümumqoşun Orduda gənc əsgər hazırlığına xüsusi diqqət yetirilir. Gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq keçirilən məşğələlərdə nizamnamə və hərbi qanunvericiliyin müvafiq tələbləri, eləcə də sıra, fiziki və atəş hazırlığı üzrə çalışmaların elementləri öyrədilir. Həmçinin hərbi xidmət dövründə gənclər milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda gələcəyin nümunəvi vətəndaşları kimi formalaşır. Heç şübhəsiz ki, ixtisas hazırlığı kurslarını başa vuran əsgərlərimiz məşğələlərdə qazandıqları bilik və bacarıqları növbəti xidmət yerlərində uğurla tətbiq edərək komandirlərinə və valideynlərinə hər zaman başucalığı gətirəcəklər.

Mərasimdə ixtisas hazırlığı kursunu başa vurmuş əsgərlər fiziki hazırlıq üzrə silahlı və silahsız çalışmalar kompleksini, müxtəlif atıcı silahların gözübağlı vəziyyətdə natamam sökülüb yığılmasını, minaatan qurğuların döyüşə və səfər vəziyyətinə gətirilməsini, mina sahəsinin qurulmasını və keçidlərin açılmasını, rabitə vasitələri ilə fəaliyyət göstərilməsini, kəşfiyyat hazırlığından müxtəlif elementləri praktik yerinə yetiriblər.

Mərasim bölmələrin tribuna önündən təntənəli keçidi ilə başa çatıb.

**Kənan CƏLİLOV**

## Muxtar respublikada torpaqların su təminatının yaxşılaşdırılması işləri davam edir



Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin suvarma mövsümünə hazırlıqla əlaqədar Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabe idarələri tərəfindən ilin əvvəlindən tərtib olunmuş qrafikə uyğun olaraq fevral ayı ərzində kanallarda, nasos stansiyalarında və digər hidrotexniki qurğularda təmir işlərinə başlanılmış, su anbarlarına suyun yığılması həyata keçirilmişdir. Belə ki, muxtar respublika ərazisində olan su anbarlarına 2023-cü ilin fevral ayı ərzində su ehtiyatının toplanılması işləri davam etdirilmiş və ayın sonuna sututarlara 95,11 milyon kubmetr su yığılmışdır.

2023-cü ilin fevral ayı ərzində 0,3 kilometr seləqarşı istiqamətləndirici bənd tikilmiş, 16,2 kilometr beton və torpaq kanal, 23,62 kilometr ara arxlar, 1,9 kilometr kollektor lildən təmizlənmiş, 0,5 kilometr içməli su xətti çəkilmiş, 0,9 kilometr yeni kaptaj tikilmiş, 1,51 kilometr mövcud içməli su xətlərində, 0,11 kilometr kanalizasiya xətlərində, 0,05 kilometr suvarma boru xətlərində, 0,39 kilometr təzyiqli boru xətlərində, 0,16 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir. Kəngərli rayonunun ərazisində mövcud olan sututarlarda lildən təmizləmə işləri aparılmışdır. Torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq məqsədilə kollektorlar lildən təmizlənmişdir. Şərur rayonunun Xələc kollektorunda 1,9 kilometr lildən təmizləmə işləri aparılmışdır. Görülən işlər nəticəsində Şərur rayonunda 22 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Şərur rayonunun Tənənəm kəndinin suvarma boru xətlərini qidalandıran, uzunluğu 86 metr yeni kaptaj tikilmiş, Babək rayonunun kənd kaptajlarında 130 metr, Culfa rayonunun Bənəniyar kənd kaptajında isə 25 metr təmir-bərpa işləri həyata keçirilmişdir. Babək rayonunun Şəkərabad kəndində 12 metr, Ordubad şəhərində 100 metr kanalizasiya xətti təmir olunmuşdur. Suvarma mövsümünə hazırlıq məqsədilə təmirə ehtiyacı olan suvarma boru xətlərində təmir-bərpa işləri aparılmışdır. Babək rayonunda 26 metr, Culfa rayonunda isə 20 metr suvarma boru xətləri təmir edilmişdir.

Nasos stansiyalarında və təzyiqli boru xətlərində cari və əsaslı təmir işləri davam etdirilmişdir. Şahbuz rayonunda "Daylaqlı" nasos stansiyası və Kolanı kəndində subartezian quyusunun təzyiqli boru xətlərində 0,22 kilometr, Culfa rayonunda "Culfa-1" nasos stansiyası və Culfa şəhər içməli su xəttinin təzyiqli boru xətlərində 0,13 kilometr, Naxçıvan şəhəri ərazisində olan "Qaraçuq-1" nasos stansiyasının təzyiqli boru xəttində isə 0,04 kilometr təmir-bərpa işləri aparılmışdır.

Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 2-nə yeni nasos quraşdırılmaqla 36-sı təmir olunmuşdur. Bundan əlavə, Culfa rayonunun Bənəniyar kəndində içməli su təminatını yaxşılaşdırmaq məqsədilə 1 subartezian quyusunun tikintisinə başlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## Naxçıvanda Beynəlxalq Teatr Günü qeyd olunub



Bu münasibətlə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Aparatının baş məsləhətçisi, Xalq artisti Kamran Quliyev çıxış edərək bildirib ki, Beynəlxalq Teatr Günü Beynəlxalq Teatr İnstitutunun 1961-ci ildə Vyanada keçirilmiş IX konqresində qəbul edilmiş qərara əsasən təsis olunub.

Vurğulanıb ki, 2023-cü ildə Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 ili tamam olur. Ölkə başçısı cənab İlham Əliyev 2023-cü il 3 fevral tarixli "Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Bu il həm də Naxçıvan teatrının 140 illik yubileyi ilə əlamətdardır.

Qeyd edilib ki, "Heydər Əliyev İli"ndə Naxçıvan Dövlət Milli Dram Teatrı Ulu Öndərə həsr olunmuş "Xilaskar", teatrın yubileyinə həsr olunmuş "Lənkəran xanının vəzirinin sərgüzəştləri" və "Cibimizdəki dəlilik" tamaşaları ilə repertuarını zənginləşdirəcək.

Tədbirin bədii hissəsində N.V.Qoqolun "Müfəttiş" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunub.

Qeyd edək ki, Naxçıvan teatrında ilk dəfə 1927-ci ildə səhnələşdirilən tamaşa 2021-ci ildə yenidən repertuara salınıb. Tamaşanın quruluşçu rejissoru, Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovdur. Səhnə əsərində Xalq artistləri Rza Xudiyev, Rövşən Hüseynov, Azərbaycan Respublikasının Əməkdar artistləri Əli Əliyev, Behruz Haxverdiyev, Əbülfəz İmanov və digər aktyorlar maraqlı obrazlarla tamaşaçı qarşısına çıxıblar.

Tamaşa alqışlarla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Ölkə başçısının rəhbərliyi ilə ölkəmiz bütün sferalarda, o cümlədən gənclər və idman sahəsində uğurlu strategiya ilə irəliləyir. Bu sahədə icra olunan dövlət siyasətinin əhatəliliyi və davamlılığı sayəsində mühüm nailiyyətlər əldə olunur. Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da gənc nəslin sağlam həyat tərzinə cəlbi, onların vətənpərvər ruhda formalaşdırılması, müxtəlif sahələrdə inkişafı və uğurlu fəaliyyətinə zəmin yaradılması istiqamətində məqsədyönlü addımlar atılır.*

## Naxçıvan gəncləri yeni uğurları ilə etimadı doğruldur



Ötən ay ərzində muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı, gənc nəslin sağlam və vətənpərvər ruhda formalaşdırılması, onların cəmiyyətdəki aktivliyini artırmaq və asudə vaxtlarının səmərəli təşkili məqsədilə bir sıra tədbirlər həyata keçirilib, uğurlu fəaliyyəti ilə fərqlənən gənc nəsil nümayəndələri mükafatlandırılıblar. İdmançılarımız yeni nailiyyətlərə imza atıblar.

Azərbaycan Gəncləri Günü muxtar respublikada geniş şəkildə qeyd olunub. Bu münasibətlə Naxçıvan şəhəri və bölgələrdə konsert proqramları, mükafatlandırma mərasimləri təşkil olunub, gənclərlə idmançılar, o cümlədən bu sahədə xidmətləri olan ictimaiyyət nümayəndələri təltif ediliblər. "Heydər Əliyev İli" ilə əlaqədar Ağbulaq İstirahət Mərkəzində gənclərin "Qış məktəbi" layihəsi çərçivəsində düşərgələr təşkil olunub. 4 mərhələdən ibarət layihədə ali və orta ixtisas müəssisələrinin tələbələri, könüllülər, eləcə də şəhər və rayonlarda fəaliyyət göstərən gənclərin iştirakı təmin edilib. Məqsəd gənclərə hər bir azərbaycanlıya örnək olan Heydər Əliyev irsinin aşılanması ilə yanaşı, onların asudə vaxtını səmərəli təşkil etmək, şəxsi inkişafını sürətləndirməkdən ibarət olub. Gənclər və İdman Nazirliyinin əməkdaşları və könüllü gənclər Naxçıvanda keçirilən "Ümummilli Lider Heydər Əliyev və vətəndaş cəmiyyəti quruculuğu" adlı konfransın təşkilatçılıq işlərində iştirak ediblər. Qardaş Türkiyəyə yollanan Azərbaycanın könüllü gənclərdən ibarət 100 nəfərlik heyətində "Naxçıvan Könüllüləri" qrupu da yer alıb. Həyat fəlakətin baş verdiyi bölgələrdə faciədən zərərçəkmiş vətəndaşlara yardımların paylanılması, əhalinin istiqamətləndirilməsi, qeydiyyat və müxtəlif əlaqələndirmə işlərində iştirak edir. Gənclər üçün "Görünməyən qəhrəmanlar – Hərbi Hava Qüvvələri" sənədli filminin nümayişi, Qriqori Petrovun "Ağ zanbaqlar ölkəsində" kitabının müzakirəsi, "Bu kino ki var..." adlı kinoviktorina təşkil olunub. Şəhidlərimizin ruhuna ehtiram, ailələrinə mənəvi dəstək göstərmək və gənclərin qəhrəmanlarımızı daha yaxından tanıması, vətənpərvərlik ruhunda formalaşmasına zəmin yaratmaq məqsədilə bir qrup könüllü gənc tərəfindən bu dəfə Culfa rayonunda yaşayan şəhid ailələri ziyarət olunub. Naxçıvan Dövlət Universiteti tələbələrinin Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən "İdeyanı reallaşdır" qrant müsabiqəsinin qalibi olmuş "Debat çempionatı" və "TAP-MAT" layihələri reallaşıb. Bölgələrimizdə yaradıcılıq müsabiqələri, intellektual oyunlar, vətənpərvərlik motivli film nümayişləri, "Heydər Əliyev İli" və Xocalı soyqırımı ilə əlaqədar müxtəlif tədbirlər keçirilib.

İdmanın inkişafı və bu sahədə kütləviliyin artırılması istiqamətində addımlar atılıb, təmsilçilərimiz ölkə və beynəlxalq miqyaslı tədbirlərdə nailiyyətlər əldə ediblər. Yaşı 18-dək olan sağlamlıq imkanları məhdud şəxslər arasında pauerliftinqin benç press növü üzrə muxtar respublika birinciliyi, Naxçıvan Şahmat Mərkəzinin idmançıları arasında "Heydər Əliyev İli" ilə əlaqədar olaraq təsnifat turniri, Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək üçün Hacəqədağa yürüş, könüllülər arasında futzal turniri, eləcə də idmançılarda şəxsi inkişaf və özünəgüvənin formalaşdırılması üçün motivasiya yönümlü təlim təşkil olunub. Babək rayon Nehrəm qəsəbə 1 nömrəli tam orta məktəbin yerli sahibkarın təşəbbüsü və dəstəyi ilə yenidən qurulmuş meydançasında keçirilən ilk futbol oyunu şəhidlərimizin xatirəsinə həsr olunub.

Futbol üzrə Azərbaycan I Divizionunda mübarizə aparan "Araz-Naxçıvan" Peşəkar Futbol Klubu növbəti iki oyununda "İmişli"dən 3:0, "Şamaxı-2"dən 2:0 hesabı ilə üstün olaraq aktivinə 6 xal yazdırıb. Təmsilçimiz bu nəticələrlə turnir cədvəlindəki liderliyini daha da möhkəmləndirib. Elbrus Kərimli Rumıniyanın Arad şəhərində keçirilən gənc və yeniyetmə boksçular arasında "Dracula Open" beynəlxalq turnirindəki qalibiyyəti ilə karyerasında ilk dəfə iştirak etdiyi beynəlxalq səviyyəli yarışı qızıl medalla tamamlayıb. Yaşı 18-dək olan yeniyetmə və gənclərin atletika üzrə qış Azərbaycan birinciliyində Aysu Abbasova 1500 metr məsafədə qızıl, 800 metr məsafədə gümüş, ilk dəfə ölkə miqyaslı yarışda iştirak edən Onur Babayev isə 60 metr məsafədə sprinterlərin arasında gümüş medal qazanıb. Sambo üzrə yeniyetmələr, gənclər və böyüklər arasında Azərbaycan çempionatı və birinciliklərində iştirak edən Məhəmməd Əlili 1 gümüş və 1 bürünc medala sahib çıxıb. 8-18 yaşadək oğlanlar və qızlar arasında keçirilən şahmat üzrə Azərbaycan çempionatının seçmə yarışlarına qatılan 22 idmançımızdan dördü uğurlu nəticəyə nail olub. Bəxtiyar Cəfərli 8 yaşlı oğlanlar arasında ikinci, Yasin Əzimov 10 yaşlı oğlanlar arasında ikinci, Rza Həsənli 16 yaşlı oğlanlar arasında ikinci, Rəcəb Abdullabəyli isə eyni yaş kateqoriyasında üçüncü yerə layiq görülüb. Naxçıvanlı veteran idmançı Məcid Rzayev usta cüdoçuların Azərbaycan çempionatının qalibi olub, Beynəlxalq Cüdo Federasiyasının Akademiyası tərəfindən keçirilən cüdo məşqçiliyi kursunda iştirak edən Orxan Quliyev imtahanı uğurla adlayaraq sertifikat qazanan məşqçilər sırasına qoşulub. Ay ərzində muxtar respublikanın bölgələrində müxtəlif idman növləri üzrə rayon (şəhər) birincilikləri, "Heydər Əliyev İli", Xocalı soyqırımı və şəhidlərimizin xatirəsinə həsr olunan turnirlər təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
### *Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***1. Pedaqogika və psixologiya kafedrası:***
*– Professor – 1 yer (1 ştat)*
*– Dosent – 2 yer (hər yer 1ştat)*
*– Baş müəllim– 1 yer (1ştat)*

***2. Azərbaycan dili və ədəbiyyat kafedrası:***
*– Dosent – 1 yer (0,5ştat)*
*– Dosent – 1 yer (1ştat)*

***3. Xarici dillər və tədrisi metodikası kafedrası:***
*– Baş müəllim – 1 yer (1ştat)*
*– Müəllim – 1 yer (0,5 ştat)*

***4. Riyaziyyat və tədrisi metodikası kafedrası:***
*– Professor–1yer(0,5ştat)*
*– Dosent – 1 yer (1ştat)*

***5. Ali riyaziyyat və informatika kafedrası:***
*– Baş müəllim – 2 yer (hər yer 1 ştat)*

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud tələblərə uyğun şəkildə rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2, Naxçıvan Müəllimlər İnstitutu, Rektorluq***

### *İtmişdir*

Culfa rayonunun Ərəzin kənd sakini Cəfərov Arif Cəfər oğluna məxsus 72 TA 249 dövlət qeydiyyat nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Yarımca kənd sakini Hüseynov Cəfər Əsgər oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***info@serqqapisi.gov.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 214**